## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 may (Çərşənbə günü) tarixli 180-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 13 şabanül-müəzzəm sənə 1337.
14 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## BİRİNCİ MÜSƏLMAN TƏVƏLLÜDXANASI

Yekşənbə [bazar] günü may ayının 11-də mama Gövhər xanım Qazızadə tərəfindən müslimələrə məxsus olmaq üzrə xüsusi təvəllüdxana açılır. Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Doktor Tsentner konsultasiya icra edir. Armyanski 13, telefon: 58-39.

## TƏTİL BİTDİ!

Azərbaycanın istiqlalına, türk demokratiyasının hakimiyyətinə qarşı adda iqtisadi, işdə siyasi olaraq elan edilmiş olan zabastovka [tətil] gözlənən nəticə ilə bitdi.

Mərkəzi Tətil Komitəsi dün nəşr eylədiyi bəyannaməsində əmələlərə [fəhlələrə] xitab edərək: "Yoldaşlar, biz məğlub olduq!" deyir.

Fəqət məğlub olan əmələlər deyil, yalnız Mərkəzi Tətil Komitəsidir. Yoxsa tətilin nəticəsi əsil Azərbaycan əmələsinin, bu yerin sahibi olan türk demokratiyasının eyni-arzusu [məhz arzusu], demək ki, eyni-qələbəsidir [məhz qələbəsidir]. Vətənin böylə müşkül bir zamanında ortalığı şuluğa vermək istəməsi ilə birtərəfli qurulan Raboçi Konfransiya [Fəhlə Konfransı] ilə Mərkəzi Tətil Komitəsi Bakı füqərayi-kasibəsinin [proletariatının] arzusuna deyil, Rusiya Sovet hökumətinin intriqasına xidmət edirlərdi.

Azərbaycan zəhmətkeşi, istiqlalçı türk demokratiyası isə bu intriqadan bizar və bu hərəkətdən kənar idi.

Onun iradəsi dəxi hakim olmalıydı.

Fəqət özlərindən şübhələnən bolşeviklər hər dəfə olduğu kimi, bu dəfə də türk xalqının bu istəyinə əhəmiyyət vermədilər. Bittəb [təbii olaraq] bunun cəzasını da çəkdilər.

Əvət, məğlub olan qüvvət, Mərkəzi Tətil Komitəsinin bəyannaməsində denildiyi kimi, Bakı füqərayi-kasibəsi deyil, Rusiya intriqasıdır.

Hər məğlubun müqabilində bir də qalib vardır. Bu dəfə qalib gələn qüvvət dəxi məğlubların izah edəcəyi vəchlə [izah edəcəyi kimi] burjuazi qüvvəti deyil, türk demokratiyasının əzmi və istiqlali-milli fikrinin qüvvətidir.

Zabastovka intriqası ilə müvəffəqiyyətli bir surətdə mübarizə eylədiyi üçün Azərbaycan tarixi-istiqlalında şayani-qeyd [qeyd edilməyə layiq] bir mövqe tutacaq olan Nəsib bəy Kabinəsi hər nə qədər əzminin mənbəyini Məclisi-Məbusanın ittifaqla verdiyi qərarından aldısa da, bu əzmini icradakı müvəffəqiyyətini tamamilə istiqlalpərvər Azərbaycan demokratiyasına və milliyyətini anlamış türk zəhmətkeş xalqına borcludur.

Bakı füqərayi-kasibəsi bu məsələdə qətiyyən məğlub deyil, qalibdir. Çünki zabastovkanı istəyən Bakı füqərayi-kasibəsi deyil, bolşevik intriqasına uyan rus əmələləri idi.

Türk demokratiyası bu birinci dəfə deyildir ki, kəndi gücünü göstərmiş, onun əzmi xaricində heç bir şey görülməyəcəyini aydın bir surətdə isbat eyləmişdir.

Bu üçüncü dəfədir ki, türk və müsəlman zəhmətkeşinin iradəsi xaricində görülmək istənilən təşəbbüslər əqim [səmərəsiz] qalır, nəticə yalançı demokratların zərər və xüsranı [ziyanı, üzüntüsü] ilə tamam olur.

Faydasız zərər olmaz zərbi-məsəli bilxassə bu tətilə yaraşar.

Azərbaycan paytaxtı altı günlük fövqəladə bir həyat keçirməklə, şübhəsiz ki, zərər gördü. Fəqət gördüyü faydalar müqabilində, bu zərərlərin nə qədər cüzi bir şey olduğu təsəvvür olunsun.

Ən böyük fayda bu ki, hökumət bir kərə daimi bir fəsad halında olan Rusiya acentlərini məmləkətimizdən sürüb də gəldikləri yerə atmaq imkanını hasil eylədi. Bolşevik fəsadçılarını tutdu, sonra başımızda patlamaq üçün zəxirə olunan [gizlədilib saxlanan] tüfəng, fişəng və top ambarlarını kəşf eylədi.

Denikin adamlarını buradan çıxarmağa təşəbbüs edərkən, hökumət bolşeviklərdən dəxi bu bəlakeş məmləkətin yaxasını qurtarmalıdır. Bolşeviklər kəndiləri kəndindən yaxayı ələ verdilər. Öz əlləri ilə özlərini kəsdilər.

Xalqın arzusu, türk zəhmətkeşinin iradəsi və Parlamanın etimadına dayanan Nəsib bəy Hökuməti siyasi bir intriqadan ibarət olan zabastovkanı şanlı bir surətdə basdırdıqdan sonra, təbiidir ki, əmələlərin iqtisadi ehtiyaclarını və həqiqi mənfəətlərini heç bir zaman ehmal etməz. Zatən böylə yapacağını əvvəlcədən bildirmişdi.

Hökumət əlbəttə ki, kollektivin əmələləri çıxarıb və qəbul etmək haqqı əmələlərə aiddir kimi maddələrini qəbul edəmməz. Çünki bu maddə doğrudan-doğruya türk zəhmətkeş demokratiyası əleyhinədir.

Çünki bu maddə ilə "bolşevik ya çar" rus intriqanları istəyirlər ki, başımız üstündə daima siyasi bir tətil şəmşiri [qılıncı] saxlasınlar. Çünki onlar gördülər ki, əleyhimizə tərtib olunan zabastovkaya birinci zərbəni endirən milliləşmiş Dəmiryol İdarəsi oldu.

"Azərbaycan" qəzetəsi keçən məqalələrindən birisində bu zabastovkaya "siyasi bir imtahan" adını vermişdir. Bu imtahandan əliyyülələ [ən əla, əladan da əla] bir surətdə çıxanlar şübhəsiz ki, milli hökumətləri arxasında səddi-İskəndər kimi duran zəhmətkeş türk xalqı oldu.

Bu əli qabarlı vətəndaşlar hər sinifimizdən ziyadə həmiyyət və siyasi idrak sahibi olduqlarını göstərdilər və bununla millətimizi təmsil edən hökumətimizin qələbəsini təmin eylədilər.

Əvət, onlar məğlub oldular. Fəqət məğlub olan Bakı füqərayi-kasibəsi deyil, Rusiya namına [adına] hərəkət edən siyasət intriqanlarıdır.

*M. Ə. [Rəsulzadə]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*12 mayıs iclası*

İclas saat 11-də açılaraq müəllimlərin və Maarif Nəzarəti məmurlarının maaşlarının artırılması haqqında Maarif Nəzarəti tərəfindən təqdim edilmiş olan layiheyi-qanuniyyə və ümum dövlət xidmətçi və məmurlarının məvaciblərinin artması barəsindəki qanun təcili surətdə müzakirə və qəbul edildikdən sonra, iclasın axırında Sosialistlər fraksiyası general Milnin 20 martda nəşr etmiş olduğu və mayın 7-sində Bakı və ümum Zaqafqaziyada paylanmış olan elan haqqında hökumətə sual verir. (Elan Zaqafqaziyanın ingilislər qəzetəmizdə vardı.) Bu suala cavabən Rəisi-vükəla [Baş nazir] Yusifbəyli Nəsib bəy həzrətləri böylə bəyanat verir:

**Nəsib bəy [Yusifbəyli]** - Möhtərəm məbuslar! Məlumunuzdur ki, ingilis əsgərləri paytaxtımıza daxil olduğu gündən bəri bir çox təbəddülat [dəyişiklik] vaqe olmuşdur. Mən sizin yadınıza salmaq istəyirəm o günləri ki, ingilis əsgərləri Biçeraxov dəstəsi ilə bərabər paytaxtımıza daxil oldular. Yenə sizin xatirinizə o günlərdə ingilislər tərəfindən intişar edilmiş [nəşr edilmiş] proklamasiyaları [bəyannamələri] salmaq istəyirəm. Bununla demək və ərz etmək istərəm ki, o şey ki, general Miln tərəfindən elan olunmuşdur, məəttəəssüf [təəssüflər olsun ki], Azərbaycan üçün yeni bir şey deyil. Yalnız bir şeyi sizə ərz eyləmək istərəm ki, buraya daxil olan xarici qüvvətin gündən-günə, saatdan-saata hökumətə, istiqlaliyyətimizə olan münasibatı dəyişməkdə idi. Paytaxtımızı general-qubernatorluq elan edən Tomson, məəttəəssüf, ərz etməliyəm ki, bütün daxili işlərimizə müdaxilə edirdi. Lakin gün-gündən bu münasibət dəyişildi. Şimdi biz o haldayız ki, heç bir cəhətlə bizim daxili işimizə müdaxilə edilməyir.

Əlbəttə ki, bu hallar səbəbsiz deyildir. Bunun səbəbi-müəyyəni nədir? İngilislər buraya gəldiyi zaman bizim haqqımızda olan məlumatları büsbütün başqa idi. Onlar paytaxtımıza daxil olduqdan sonra özlərinin səhvdə olduqlarını gördülər və bildilər ki, bizim haqqımızda onlara verilən məlumat yalandır.

Onlar gördülər ki, Azərbaycan milləti o qədər yüksəlmiş ki, özlərini idarə edə bilərlər. Bunu inkar da etməyirlər. Axır günlərdə onlar açıq deyirlər ki, biz gördük və anladıq ki, siz özünüzü idarə edə bilərsiniz. Sizin daxili işlərinizə müdaxilə etmək artıqdır.

Əlbəttə, biz istəməyiriz və istəməyəcəyiz ki, kim olursa olsun, xah [istər] ingilis və xah başqa bir dövlət, bizim işlərimizə müdaxilə eyləsin. *(Alqış)* Biz istəməyiriz və istəməyəcəyiz ki, bizim işlərimizə nə qədər qüvvətli və nə qədər təntənəli və şəşəəli [ehtişamlı] olursa olsun, kimsə müdaxilə eyləsin. Özümüz-özümüzü idarə etməyə ləyaqətimiz vardır və idarə də edə bilərik.

Milnin elan etdiyi intibahnamə, məlumunuzdur ki, mart ayına aiddir. Martın 20-sində İstanbulda çap edilmişdir. Buraya texnika cəhətindən iki aydan sonra gəlib çıxmışdır. Bu iki ayın zərfində ya burada, ya ümum aləmdə o qədər təbəddülat hasil olmuş ki, İngiltərə hökumətinin iki ay əvvəl nə düşündüyünü burada müzakirə etməyə bir o qədər də lüzum yoxdur. İki ay əvvəl ola bilər ki, İngiltərə hökuməti öylə düşünürmüş. Hər halda həman məsələ bu günə aid deyildir. Çünki iki ayda deyil, iki gündə deyil, saatın ərzində dəyişikliklər vaqe olur.

Çox ola bilsin ki, bu yaxın zamanlarda hökumət mümkün biləcəkdir ki, sizə bir çox təbəddülatlardan bəhs etsin. Mən kamali-əmniyyət [tam əminlik] və cəsarətlə deyə bilərəm ki, Miln tərəfindən elan edilən intibahnamənin bir o qədər əhəmiyyəti qalmamışdır və ya Tiflisdən bizə verilən məlumata görə, bu elan tarixə aid köhnə bir şeydir. Onlar öylə mülahizə eyləmişlər, bəlkə onların şu elanı şəhərimizdə vaqe olan tətilə bir təsiri olsun. Mən təkrar ərz eyləmək istəyirəm ki, ola bilsin yaxın günlərdə sizə məlumat verək ki, bizim artıq müqəddəratımız təyin edilmişdir, Mavərayi-Qafqaziyanın [Zaqafqaziyanın] məsələsi Sülh Konfransında həll edilmişdir. Bunun nəticəsi olaraq bir çox təbəddülat hasil olacaqdır. Əlbəttə, bunlar mənim şəxsi qənaətimdir. Hər halda yəqin eyləmək olar ki, bizim müqəddəratımız həll edilmişdir. Ancaq bir məsələ var ki, o da millətin əzmi və arzusudur. Necə ki, tətil zamanı da isbat etdi ki, millət artıq özünü bilir, millət istiqlaliyyətə layiqdir. Buna layiq olduqdan sonra əlbəttə öz istiqlaliyyətini mühafizə edər və mən yenə təkrar edirəm ki, Azərbaycanın heç bir şeydən qorxusu yoxdur.

*(Mabədi var)*

## TELEQRAF XƏBƏRLƏRİ

***Hacı-Tərxan altında***
*(Rəsmi məlumat)*

Mayın 10-da İngiltərə aeroplanları düşmənin Volqada olan üssülhərəkəsi [bazası] üzərində müvəffəqiyyətli bir surətdə uçmuşlardır. Aeroplan mövqiflərinə və müsəlləh [silahlı] gəmilərə bombalar salınmışdır. Bombaların bir çoxu yerinə düşüb yanğınlar əmələ gətirmişdir.

### SÜLH ƏTRAFINDA

**Sülh Konfransının açılması və alman nümayəndəsinin nitqi**

Versaldan alınmış olan məlumati-rəsmiyyəyə görə may ayının 7-sində, saat 3-də "Palas" oteldə Almaniya sülh nümayəndələrinə sülh şəraiti [şərtləri] təqdim edilmişdir. Almaniya tərəfindən indiki Almaniya nazirlərindən Brokdorf-Rantsau, Gisberts, prezident Leynert, professor Şukinq, doktor Melxior, direktor Simons, fon Ştokhammern və səfarətxana müstəşarı Rediger isbatı-vücud [iştirak] etmişlərdir.

Etilaf [Antanta] dövlətləri tərəfindən Konqre üzvləri Klemanso, Vilson, Lloyd Corcdur. Bunlar Almaniya nümayəndələri varid olduqda ehtiramən ayağa durmuşlardır. Klemanso təbrik nitqi irad etdikdən sonra qraf Brokdorf-Rantsau bu məzmunda nitq irad eyləmişdir:

*"Centlmenlər! Bizi bir yerdə cəm edib də mümkün olduğu qədər tez bütün cahana möhkəm və mətin sülh vermək məsələsi həllinə müvəzzəf olduğumuzdan [vəzifəsini öhdəmizə aldığımızdan] biz çox məmnunuz. Biz heç bir vaxt özümüzü məğlubiyyətimizin qədəri və zəifliyimizin dərəcəsi [barəsi]ndə aldatmayırız. Biz biliriz ki, Almaniya ordusunun gücü pərişan olmuşdur.*

*Burada bizə qarşı olan nifrəti biliriz. Biz bunu da eşitmişik ki, qaliblər nəinki bizi məğlub düşmən, bəlkə cani sifəti ilə mühakimə etmək istəyirlər. Bu aləm-şümul Avropa müharibəsi… (Burada teleqraf cümləsi buraxılmışdır.) …qaldığından uzağıq. Almaniya ki, müdafi müharibə [müdafiə müharibəsi] aparırdı, davanın başlanmasında yalnız müqəssir deyildir. Bizlərdən kimsə istəməz təsdiq edə ki, Avstriya-Macarıstan vəliəhdinin qətli münasibəti ilə səhv edilmişdir. Axırıncı 50 ildə bütün Avropanın cahangirliyi beynəlmiləl halı zəhərləmişdir. Revanş politikası, nüfuz dairəsini artırmaq siyasəti və xırda millətlərə muxtariyyət verməmək siyasəti öylə bir bədbəxtanə hal yaratdı ki, o hal Avropa müharibəsinə səbəbiyyət verdi. Rusiyanın səfərbərlik elanı möhlət vermədi ki, bu bədbəxtanə vəzi [vəziyyəti] düzəltmək mümkün olsun və məsələnin həllini hərbi məmurların ixtiyarına verdi."*

**Zaqafqaziya cümhuriyyətləri**

Tiflisdən alınan mövsuq [etibarlı] məlumata görə, Sülh Konfransı Zaqafqaziya cümhuriyyətləri haqqında müəyyən qərara gəlmişdir ki, bu qərar üzrə də Zaqafqaziya cümhuriyyətləri təsdiq edilir. Etimadnamələr Müttəfiq dövlətlər arasında təqsim edilmişdir [bölünmüşdür].

## QƏZETƏLƏRDƏN

Odessa bolşeviklər tərəfindən işğal edilmədən əvvəl sabiq imperatoriçə Mariya Fyodorovna Paris[dəki] Danimark səfarətxanası vasitəsilə Müttəfiqlərin [Antanta ölkələrinin] nümayəndələrinə müraciət edib, maddi cəhətdən müavinət edilməsini onlardan rica etmiş və özlərinin qayət fəqr içində üsrətdə [çətinlikdə] olduqlarını əlavə etmişdir. İmperatoriçənin təvəqqesinə əməl edilmişdir.

**Sabiq knyazların Petroqrada təbidi [qovulması]**

Sabiq Veliki knyaz [Böyük knyaz] Nikolay Mixayloviç, Georgi Mixayloviç, Pavel Aleksandroviç Qafqaz Mədənlərində bolşeviklər tərəfindən həbs edilib hal-hazıradək Petroqradda saxlanılmaqdadırlar. Petroqrad təxliyə edildikdən və general Yudeniç həmləsindən sonra onların müqəddəratı məlum deyildir.

- Arnold Boldvinq xəbər vermişdir ki, mart ayının 31-ində Müttəfiqlərin İngiltərəyə olan borcu 1.508.447.000 liradır.

## DAĞISTAN ƏHVALI

**Çeçendə**

Çeçen rayonunda əməliyyatda bulunan Könüllü ordu dəstələri Qroznıya çəkilmişlərdir. Yandırılmış olan bir neçə çeçen kəndlərinin elçiləri bugünlərdə Denikin dəstələrinin harada olduqlarını öyrənmək istəmişlərdir. Çeçenlərlə Dağıstanlı dəstəsi arasında, məəttəəssüf [təəssüf ki], müsadimə [toqquşma] vaqe olmuşdur. Aşkar olduğuna görə, bu da düşmənlər tərəfindən buraxılan müfəttinanə [araqarışdırıcı] şayiələrin nəticəsi olmuşdur. İstintaq edən hökumət komissiyasının işi qurtarmışdır. Çeçenlər axırıncı ictimada [yığıncaqda] qəti surətdə izhar etmişlər ki, onlar öz varlıqlarını ancaq dağıstanlıların ittifaqında görürlər. Ona görə heç bir qüvvə Denikin və kompaniyasının polis tərzi-idarəsini onların boynuna keçirməyə malik deyildir.

**Teymurxanşurada**

Məşhur Şeyx Uzun Hacı Saltınski və Əli Hacı Akuşinski hökumətin dəvətinə görə hal-hazırda Teymurxanşurada idareyi-ruhaniyyədə islahat icrası ilə məşğuldurlar. Hökumət rəisi Kotsev kəndləri gəzib övdət etmişdir [qayıtmışdır]. Mayın 15-ində təyin edilmiş Məclisi-Məbusan seçkiləri üçün hər yerdə ciddiyyət görünür.

**Qroznı mədənlərində dəhşətli yanğın**

"T. K." qəzetəsi bu yaxınlarda Qroznıda vaqe olan dəhşətli yanğını böylə təsvir edir:

Aprelin 27-sində, gündüz saat 3-də naməlum səbəbdən "Şimali Qafqaz" şirkətinin 232-ci uçastokunda 1 nömrəli buruq yanmışdır. Qanav [qanov, arx] ilə ataş 2 nömrəli buruğa keçir, sonra ataş "Petroqrad-Qroznı" neft şirkətinin 137-ci uçastokuna keçir. 55 nömrəli fontanlı buruğu güclə yanğından saxlamaq mümkün olmuşdur.

Mədən dairəsində alov seylabı [seli] axırdı və nerəyə çatsa, oranı da yandırırdı. Buruqlarda yanan neftlərin miqdarı 4 milyon putdur. Yanğını tezliklə söndürmək əmələ [fəhlə] yoxluğundan və texnika cəhətdən mümkün olmamışdır. Onlarla milyon xəsarət vardır. Yanğından hasil olan bulud Qroznını zülmət içində buraxmışdır.

## HANSI VACİBDİR?

Hökuməti mövqesiz zabastovkalarla işğal edən fəhlə güruhu yəqin ki, sabahkı günün fikrinə qalmaq istəməyir. Bildirki çörək qəhətliyi bu il də təkrar olmasın. Bildir Muğandan hasil olmuş taxılın həddi-hesabı yox idi. Ümurisiyaysiyyə [siyasət işləri] başlı və müdəbbir [uzaqgörən] bir hökumətin əlində olsaydı, bildirki yalnız Muğanın taxılı bugünkü Zaqafqaz cümhuriyyətlərinin dördünə də kifayət edərdi. Məəttəəssüf [təəssüf ki], bolşevik sərsəriləri taxıl qeydinə deyil, qabaqca taxıl əkmiş biçarə əkinçilərin qırğını ilə məşğul olaraq bərəkətli bir məhsulatın fikrinə də qalmadılar. Qəflətdən bir vaxt ayıldılar ki, daha rüzgarın təsiri ilə sünbülələr əyilib dənələrini ətrafa saçırdılar. Bu vaxtlar kəndlilər əyinlərini, dam-daşlarını buraxıb dağlara, meşələrə qaçmışdılar. Taxılları biçmək üçün bir çox oraq və dəryaz kimi karastılara [alətlərə] ehtiyac var idi. Lakin hərçi çalışdılar, çabaladılar, Maskovdan beləsinə teleqraflar çəkdilər, amma bu karastıları ələ gətirəmmədilər. Bina-ənileyh [ona görə], milyonlarca əhalinin taxılı yerlə yeksan olub qumlara, torpaqlara qarışdı getdi. Fəhlələr çörəyin girvənkəsi[ni] 20 rubləyə yedilərsə də, qorxudan səslərini də çıxarammadılar. Çünki zalım bolşeviklərin hərəkatına qarşı heç kəs cıqqırığını da çıxara bilməzdi.

Yeni biçin vaxtına az qalmışdır. Bildirki kimi məhsulumuz boldur. Azərbaycanın hər cəhətindən tərif sədaları eşidilməkdədir. Bunun hamısını ələ gətirə bilmək üçün fövqəladə ciddi tədbirlərə ehtiyac görülür. Minlərcə biçinçi və çalınçıların mühəyyası [hazırlanması] ilə bərabər, yüz minlərlə oraq və dəryaz kimi şeylərin pişəzvəqt [qabaqcadan] tədarükü gərək görülsün. Bunun qeydinə əhali ilə bərabər hökumət də qalmalıdır. Lakin Fəhlə Konfransı adı ilə bir dəstə xaricdən gəlmə sərsərilər gündə bir zabastovka məğlətəsi [hay-küyü] ilə hökuməti məşğul edir, faydalı vaxtını bihudə işlərə sərf etdirir ki, müəssisələrin fəaliyyəti siyasi zabastovkalar kimi xəyanətlərlə mübarizədən ibarət olarsa, taxıl hasilatı kimi məsələlərin həllinə vaxt daha qalmaz. Bu ilki taxılı da yenə qurd-quşlar yeyər.

Əcəba, rus fəhlələrinin arasında idrak və əqli-səlimə [sağlam ağıla, mühakiməyə] malik olanları yoxdurmu ki, hökumətdən Hacı-Tərxan [Həştərxan] yolu əvəzinə Muğan yolunun açılmasını tələb etsinlər?

Hacı-Tərxanlıların bugünkü qəhətlikdən çəkdikləri müsibətini hamıdan artıq fəhlə qismi hiss etdiyi halda, "Bakının məişət anbarı" müqabilində bulunan Muğanın əhval və övzasına [vəziyyətinə] diqqət etməyib, təkasül ilə [başısoyuq] davranmağı böyük bir qəbahətdir sanıram. Halbuki bu il də Muğanın məhsulatı cəm olmazsa, söz yoxdur ki, füqəranın və ələlxüsus fəhlə qisminin məişəti indikindən də ağır keçəcəkdir. İştə, zabastovkanın məramı filvaqe [həqiqətən] iqtisadidirsə, məmləkətin iqtisad cəhətindən ən böyük ehtiyacı Tanrının bəzl [saçdığı] və ehsan etdiyi milyonlarca nemətinin asan vəchlə ələ gətirilməsidir ki, bu yolda fəhlələrin nə kimi fəaliyyəti olursa-olsun başqasının heç bir söz söyləməyə haqqı olmazdı. Bakının nefti Hacı-Tərxana getsə də, getməsə də işləyən fəhlə haqqını alacaqdır.

Lakin fəhlə ac qalarsa, hökumətdən buna çarə tələb edəcəkdir, ucuz çörək istəyəcəkdir. Məhsulatın ələ gətirilməsi üçün hökumətə bu gün yardımlıq etməyib də hələ bəzi fitnəli məğlətələrlə onu işğal edən fəhlələrin sabah ac qala biləcək halında müqəssir kim olacaqdır, aya [görəsən]?

Bakıda oturub Rusiyanın qeydinə qalanlara nə nəzərlə baxmalıdır? Azərbaycanın dərdinə qalmayıb bizlə qəm şəriki olmayanlar yəqin ki, azərbaycanlı olmaz. Azərbaycanlılığın birinci sifəti şad günlərində məsrur [şad], qəmli günlərində məğmum [qəmli] və həyəcanlı günlərində də mərdanə fədakarlıqdan ibarətdir ki, bu sifətlər kimdə olmasa azərbaycanlılardan məhsub deyildir [hesab olunmur]!

Özgə qolunun zoruna ümid bağlayıb qalarsaq, Mart hadisatı kimi fəqərələr [hadisələr] yenə təkrar olunar. Biz ancaq öz zəhmətkeşlərimizə ümidvar olmalıyıq. Bunların sayəsində məhsulatımızı asudəliklə toplayıb, vaxtlı-vaxtında anbarlarımızı doldurmalıyıq ki, məqami-zərurətdə özlərimizlə bərabər özgələri də çörəksiz qoymayaq.

Əvvəla hökumətin ianəsi ilə dolanan yüz minlərlə qaçqınlarımız vardır ki, əkin və biçin kimi şeylərin hamısı bunların əlindən gəlir. Bunları xüsusi idarələr vasitəsilə məhsulatı bol olmuş kəndlərə və qəzalara göndərməlidir ki, əkin sahiblərindən qanuni ücrətlər alıb, buğda və arpanı biçsinlər.

Hələ biçin vaxtınadək tarlaları bir çox afat [fəlakət] və bəlalardan hifz etməlidir ki, başlıcaları çəyirtgə və çöl siçanlarıdır. Ziraət İdarəsinin məlumatına görə, Bakı quberniyasında dörd min və Gəncə quberniyasında bir min desyatin yer çəyirtgə yumurtası ilə doludur. Həman yerlərdə çöl siçanları da hədsiz ürüyüb artmışlardır. Bunlarla mübarizə kompaniyasını indidən açmalıdır ki, məbada sonradan əkinçilərin səy və zəhmətləri hədərə gedər. Bunun icrası üçün Ziraət İdarəsi hökumətdən 110 min rublə pul tələb edir. Bu pulun çoxu bəzi karastıların tədarükü və məxsusi dərmanların hazırlanmasına sərf olunacaqdır. Zənn edirəm ki, həman qaçqınlarımız tərtib verilə biləcək bu mübarizə dəstələrinə də yarasınlar.

Bina-ənileyh [ona görə], mübarizə rəhbərlərinin birinci vəzifəsi görülə biləcək işlərin hamısını da olmasa, bir çoxunu qaçqınlara tapşırmaqdır ki, həm qaçqınlar öz zəhmətləri sayəsində dolansınlar, həm də hökumətin bunlara xərclədiyi məsarifi dağılmayıb xəzinədə sair ehtiyaclarımız üçün qalsın.

Xülasə, məhsulatın ələ gətirilməsi üçün vaxtı fövtə verməməli, hər bir fədakarlıqdan çəkinməməlidir.

**F. A.**

## TƏTİL ƏTRAFINDA

**Tətilin qurtarması**

Mərkəzi Tətil Komitəsi (Staçkom) tətilin qurtarmasını və mayın 13-ündə, gündüz saat 12-də işə başlamağı qərara almışdır. İşə başlamadan əvvəl səhər saat 10-da rayon staçkomları [tətil komitələri] mitinqlər tərtib edəcəklərdir. Bu mitinqlərdə Mərkəzi Tətil Komitəsinin nümayəndələri Bakı füqərayi-kasibəsinin tələbatı haqqında məruzədə bulunacaqlardır. Tətil Komitəsi bu münasibətlə buraxdığı müraciətnamədə deyir ki:

*"Yoldaşlar! Biz məğlub olduqsa da lakin Bakı füqərayi-kasibəsinin qüvvəti artıqdır."*

**"Raboçi Klub"un qapanması**

Dünən hökumətin binagüzarlığı [sərəncamı] ilə Bakıdakı "Raboçi Klub" polis tərəfindən qapanıb və möhürlənmişdir.

**Pristavın qovulması**

Portovoy uçastokun [liman sahəsinin] pristavı Maksimyuk tətil əsnasında hərəkətsiz və fəaliyyətsiz qalaraq lazımi ciddiyyət göstərmədiyindən qubernatorun binagüzarlığı [sərəncamı] ilə qulluğundan əzl [kənar] edilmişdir.

**Bolşeviklərin həbs edilməsi**

Mayın 9 və 10-nunda Balaxana-Sabunçu mədən dairəsində müsəlman əmələləri tərəfindən tətil və bolşevizm lehinə təbliğatda bulunan Kamran Ağazadə, Mixail Kazaşvili, Arçil Georqadze, Sergey Çinyakin, Kaqam Kurmayev, Pavel Anderson və İshaq Xvalis tövqif [həbs] edilib polis müdirinə verilmişdir. Onlar şəhərə təhərri [axtarış] polisəsi binagüzarlığına göndərilmişlərdir. Xvalis 1907-ci ildən bəri bolşevik olub Tiflisdə və Qori şəhərlərində tətillərdə iştirak etmişdir. Onlar hamısı həbsxanaya göndərilmişlərdir.

## BAKI XƏBƏRLƏRİ

**Qubernatorun övdəti**

Bakı qubernatoru Rəşid bəy Axundzadə dünən Bakıya övdət edərək [qayıdaraq], kəndi vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Konka hərəkatı**

Şəhərdə müsri [yoluxucu] xəstəliklər qurtardığından, Səhhəti-Ümumiyyə Nəzarətinə mütəalliq [Səhiyyə Nazirliyinə məxsus] sihhiyyə nəqliyyat arabaları işsiz qalmışdır. Buna binaən [buna əsasən], Səhhəti-Ümumiyyə naziri Şəhər İdarəsinə müraciətən rica etmişdir ki, arabaların azad edilmiş olan 50 rəs [baş] atlarını alıb konka hərəkatına başlasın.

## AZƏRBAYCANDA

**Gəncədə**

Təzəlikcə buraxılmış olan Azərbaycan yüzlükləri əhali və tüccarlar tərəfindən qayət həvəslə qəbul edilir. Bu yüzlükləri alıb əvəzinə xırda pullar verirlər. Zaqafqaz pulu ilə başa-baş dəyişirlər. Halbuki əvvəlcə Zaqafqaz pulu artıq faizlə gedirdi.

- Qazax mahalı naçalniki Ərzaq Nəzarəti qarşısında təşəbbüsdə bulunmuşdur ki, mahal dairəsindən xüsusi şəxslər taxıl aparmasınlar. Zira bu axırıncılar mahalda taxıl qiymətinin artmasında böyük rollar oynayırlar.

- Hərbiyyə Nəzarətinin binagüzarlığı [sərəncamı] ilə Ərzaq Nəzarəti ixtiyarında olan ərzaq şeyləri Bakıya və Gəncəyə gətirilir.

## İZHARİ-İMTİNAN [TƏŞƏKKÜR BİLDİRİLMƏSİ]

Salyan qəzasına tabe Xıllı nahiyəsi müdiri Mirzə Məhərrəm Ləläyev əfəndi inqilabdan şimdiyə qədər dəfəatla [dəfələrlə] dağıdılıb bərbad bir hala gələn kənd məktəblərini bir dərəcəyə qədər maddətən təmir edərək tərbiyəyə təşnə olan kənd çocuqlarının məktəbə toplanmasına bais olmaqdan maəda [əlavə], Kür suyu daşqınında ətrafda sədd çəkdirməkdə böyük fəaliyyət ibraz etmişdir [göstərmişdir]. Mümaileyh [haqqında danışılan] əfəndinin işbu hərəkətini həm dövlət və həm də camaatımız üçün fövqəladə bir xidmət ədd [hesab] edərək, səmimi təşəkküratımızı izhar etməyə qəzetənizin vasitə olmasını rica ediriz.

*[Rüstəm] İskəndərzadə*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Tətil bitdi!***

"kollektivin": kollektiv müqavilə nəzərdə tutulur.

"səddi-İskəndər": "Quran"a görə, İskəndər Zülqərneynin Yəcuc-Məcuc qövmü ilə mədəni qövmlər arasında inşa etdiyi sədd. Ədəbiyyatda "keçilməz, aşılmaz sədd" mənasında işlədilir.

***Azərbaycan Məclisi-Məbusanında***

"(Elan Zaqafqaziyanın ingilislər qəzetəmizdə vardı.)": Belə görünür ki, bu cümlə yarımçıq çıxmışdır. General Milnin "Zaqafqaziya əhalisinə" adlı, 20 mart 1919-cu il tarixli bəyanatı "Azərbaycan" qəzetinin 9 may tarixli 176-cı nömrəsində verilmişdir.

"Mən sizin yadınıza salmaq istəyirəm o günləri ki, ingilis əsgərləri Biçeraxov dəstəsi ilə bərabər paytaxtımıza daxil oldular.": Bu cümlə qəzetdə belə getmişdir: "Mən sizin yadınıza salmaq istəyirəm o günləri ki, ingilis tərəfindən işğalı haqqında idi ki məzmunu əsgərləri Biçeraxov dəstəsi ilə bərabər paytaxtımıza daxil oldular."

***Sülh ətrafında***

"Palas" otel: söhbət Versalda yerləşən Trianon Palace Versailles otelinden gedir. Otel 1910-cu ildə inşa edilmişdir. Versal Sazişi 1919-cu ildə bu oteldə hazırlanmış və Almaniya nümayəndə heyətinə təqdim edilmişdir.

"məğlubiyyətimizin": qəzetdə "məğlubumuzun" getmişdir.

***Qəzetələrdən***

"Qafqaz Mədənlərində": Qafqaz Mineral Suları kurortlar qrupu nəzərdə tutulur.

"Arnold Boldvinq": güman ki, 1917-1921-ci illərdə Britaniya Dövlət Xəzinəsinin Maliyyə katibi vəzifəsini tutan Stenli Boldvindən [Stanley Baldwin] söhbət gedir. Qəzetdə "Arnold Boldvinq" yazılmışdır.

***Dağıstan əhvalı***

"T. K.": Vladiqafqazda nəşr edilmiş "Terski kazak" qəzeti nəzərdə tutulur.

***Hansı vacibdir?***

"F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

***Azərbaycanda***

"mahalda taxıl qiymətinin artmasında": qəzetdə "qiymətinin" yerinə "qisminin" getmişdir.